# TARİX

*( II və III ixtisas qrupları üçün )*

*III ixtisas qrupu üçün proqramın həm ümumi tarix, həm də Azərbaycan tarixi bölmələri, II ixtisas qrupu üçün isə proqramın yalnız Azərbaycan tarixi bölməsi nəzərdə tutulur.*

*Qəbul proqramına tarixi dövrlərin əsas məqamları, ayrı-ayrı dövlətlərin tarixinin başlıca mərhələləri daxil edilmişdir.*

*Abituriyentlər nəzərə almalıdırlar ki, bir çox hallarda tarix dərsliklərindəki müəyyən məsələlər, sual və tapşırıqlar illüstrasiya materialları vasitəsi ilə çatdırılır ki, bu da verilmiş mövzunu tamamlayır. Bunları bilmək qəbul proqramındakı bir sıra məsələləri aydınlaşdırmaq üçün də zəruridir.*

*Onu da bilmək lazımdır ki, testlərdə yanlış və doğru cavablardakı fərqlər bəzən anlayışlar arasındakı fərqdən irəli gəlir. Odur ki, qəbul imtahanına hazırlaşarkən abituriyent mövzulara aid olan anlayışlara xüsusi diqqət yetirməlidir.*

*Abituriyentlər proqramdakı materialı dərindən bilməklə yanaşı:*

*– tarixi anlayışları və qanunauyğunluqları başa düşməyi, tətbiq etməyi, səbəb-nəticə, məkan və zaman əlaqələrini izləməyi;*

*– bütövlükdə tarixi proses və inkişafın müəyyən mərhələlərində ictimai həyatın müxtəlif tərəflərini xarakterizə edən mühüm faktları dərk etməyi;*

*– analiz, sintez, təsnifat tələb edən ictimai hadisələri müqayisə etməyi, ümumiləşdirməyi;*

*– nəzəri bilikləri tətbiq etməyi, nəticələr çıxarmağı, onları faktlarla əsaslandırmağı, təhlil və sübut etməyi;*

*– sxemlər, xəritə – sxemlərlə işləməyi;*

*– qiymət və proqnozlar verməyi də bacarmalıdırlar.*

## ÜMUMİ TARİX

***Giriş***

Tarix elmi. Tarixi inkişafın əsas mərhələləri. Tarixi mənbələr. Tarixdə il hesabı.

### QƏDİM DÖVR

***Qədim Şərq***

***Qədim Misir:*** Coğrafi mövqeyi və əhalisinin məşğuliyyəti. İlkin dövlətlərin yaranması. Misirin birləşdirilməsi və idarə olunması. Fironların işğalları. Mədəniyyət. Din. İncəsənət: Piramidalar və Sfinks. Yazı. Elmi biliklər.

***Mesopotamiya:*** Coğrafi mövqeyi və əhalisinin məşğuliyyəti. Qədim şumerlər. Şəhər dövlətləri. Mədəniyyət. Yazı. Din.

***Mərkəzi Asiya xalqları:*** Qədim hunlar. Böyük Hun imperatorluğu. Yerləşdiyi ərazi. Əhalinin məşğuliyyəti. Mədəniyyət.

***Qədim Çin:*** Coğrafi mövqeyi və əhalisinin məşğuliyyəti. İlkin dövlətlər. Vahid dövlətin yaranması. Sin padşahlığı. Böyük Çin səddi. Xan sülaləsi. Böyük ipək yolu. Xalq üsyanları. Mədəniyyət: yazı, kağız, kompas. Elmi biliklər. Konfutsi təlimi.

***Qədim Hindistan:*** Coğrafi mövqeyi. Əhalisinin məşğuliyyəti. İlkin dövlətlər. Ölkənin birləşdirilməsi. Kastalar. Mədəniyyət: elmi biliklər. Rəqəmlər. Şahmat. Din.

***Antik dünya***

***Qədim Yunanıstan:*** Coğrafi mövqeyi. Əhalisi. Təsərrüfat həyatı. Krit dövləti. Mikena mədəniyyəti. Homer. Din. Afinada quldarlıq quruluşu. Kölə (qul) mənbələri. Aristokratlar. Demos. Solonun islahatları. Sparta quldarlıq dövləti. Qədim yunan məskənləri. Yunan-Əhəməni müharibələri. Afina quldarlıq demokratiyası. Perikl. Ellin mədəniyyəti. Elm. Demokrit, Aristotel, Herodot və b. Məktəb. Teatr. Memarlıq. Heykəltəraşlıq. Olimpiya oyunları. Afina-Sparta müharibəsi. E.ə. IV əsrdə Yunan şəhər-dövlətlərinin tənəzzülü. Makedoniyalı İsgəndərin imperiyası. Ellin və Şərq mədəniyyətlərinin yaxınlaşması.

***Qədim Roma:*** Coğrafi mövqeyi. Əhalisi. Padşahlıq dövrü. Patrisilər. Plebeylər. Respublika. Plebeylərin patrisilərlə mübarizəsi. Roma işğalları. Pun müharibələri. Romada quldarlığın inkişafı. Qrakx qardaşlarının islahatları. Spartak üsyanı. Sezar. Roma imperiyası. İncəsənət və elm. Quldarlıq təsərrüfatının tənəzzülü. "Daxmalı qullar". Kolonlar. Xristianlıq. İmperiyanın parçalanması: Qərbi Roma və Şərqi Roma (Bizans) imperiyaları. Qərbi Roma imperiyasının süqutu.

Ümumi tarixin qədim dövrünün sonu.

### ORTA ƏSRLƏR DÖVRÜ

#### *ERKƏN ORTA ƏSRLƏR*

***Feodal münasibətlərinin meydana gəlməsi***

***Çin:*** Feodal münasibətlərinin yaranması və inkişafı. Çin Suy, Tan və Sun sülalələrinin hakimiyyəti dövründə. Türklər və Çin.

***Türk dövlətləri:* Ağ Hun imperatorluğu**: Dövlətin yaranması. Daxili və xarici siyasət. Dövlətin süqutu. Təsərrüfat və ictimai həyat.

**Qərbi Hun imperatorluğu:** "Xalqların böyük köçü". Dövlətin yaranması. Avropada işğallar. Attila. Bizansla münasibətlər. Dövlətin süqutu. İctimai həyat və təsərrüfat.

**Göytürk imperatorluğu:** Dövlətin yaranması. İki hissəyə parçalanması. Daxili və xarici siyasət. Dövlətin süqutu. Təsərrüfat və ictimai həyat.

**Uyğur dövləti:** Dövlətin yaranması. Daxili və xarici siyasət. Dövlətin süqutu. İctimai həyat.

**Xəzər xaqanlığı:** Coğrafi mövqeyi və əhalinin məşğuliyyəti. Dövlətin yaranması. Daxili və xarici siyasət. Xəzərlər və Azərbaycan. Dövlətin zəifləməsi və süqutu.

**Qaraxanlılar dövləti:** Coğrafi mövqeyi. Dövlətin yaranması. Daxili və xarici siyasət. Dövlətin zəifləməsi və süqutu.

**Qəznəvilər dövləti:** Ərazisi və əhalisi. Dövlətin yaranması. Daxili və xarici siyasət. Dövlətin zəifləməsi və süqutu.

***Ərəblər:*** *İslam dini və Xilafətin meydana gəlməsi:* Məhəmməd Peyğəmbər, İslam dini, Qurani Kərim. Ərəb qəbilələrinin birləşməsi. Ərəb işğalları və xilafətin yaranması. İslamın yayılması. Tiflis müsəlman əmirliyinin yaranması. Xilafətdə feodalizm quruluşu və onun xüsusiyyətləri. Xalq üsyanları. Xilafətin dağılması və bunun səbəbləri.

***Avropa V–XI əsrlərdə:*** Qədim almanlar və onların məşğuliyyəti. Qədim alman tayfalarının Qərbi Roma imperiyasını işğal etməsi. Erkən feodal dövləti. Franklarda dövlətin meydana gəlməsi. Feodal mülkü. Natural təsərrüfat. Feodallar və kəndlilər. Frank imperiyası. Verden müqaviləsi. "Müqəddəs Roma imperiyası"nın yaranması. Feodal dağınıqlığı. "Feodal nərdivanı". Qərbdə feodalizmin xüsusiyyətləri.

***Bizans:*** İmperiyanın güclənməsi. Feodalizm quruluşunun yaranması. Bizansın inkişaf xüsusiyyətləri.

***Slavyanlar:*** Ərazisi və əhalinin məşğuliyyəti.

***Mərkəzi və Şərqi Avropada dövlətlərin yaranması:*** Kiyev, Çexiya, Polşa və Macar dövlətləri.

### *KLASSİK FEODALİZM*

***Böyük Səlcuq imperatorluğu:*** Ərazisi və əhalisi. Dövlətin yaranması. Daxili və xarici siyasət. Dövlətin zəifləməsi və parçalanması.

***Dehli sultanlığı:*** Sultanlığın yaranması. Daxili və xarici siyasət. Dövlətin zəifləməsi və dağılması.

***Böyük Monqol imperatorluğu:*** Ərazisi və əhalinin məşğuliyyəti. Dövlətin yaranması. Daxili və xarici siyasət. Dövlətin zəifləməsi və parçalanması.

***Qızıl Ordu:*** Ərazisi. Dövlətin yaranması. Daxili və xarici siyasət. Dövlətin zəifləməsi. Qızıl Ordunun parçalanması: Krım, Qazan, Həştərxan və Sibir xanlıqları.

***Şərqi Avropa xalqları:*** Moskva knyazlığı. Monqol ağalığı dövrü.

***Osmanlı imperatorluğu:*** Dövlətin yaranması və onun imperiyaya çevrilməsi. II Mehmet. Konstantinopolun fəthi. İdarəçilik. Torpaq mülkiyyət formaları və vergilər.

***Teymur imperatorluğu:*** Teymurun Mavəraənnəhri idarə etməsi. Dövlətin yaranması. Daxili və xarici siyasət. Dövlətin zəifləməsi və dağılması.

***Qərbi Avropa ölkələri. Orta əsr şəhərlərinin yaranması****:* Orta əsr şəhərlərində sənətkarlıq və ticarət. Şəhərlilərin feodal ağalara (senyorlara) qarşı mübarizəsi. Əmtəə istehsalı. Yarmarkalar, banklar.

Xristian kilsəsinin parçalanması. Bidətçilərə qarşı mübarizə. Səlib (xaç) yürüşləri və nəticələri.

***Fransa:*** Ölkənin birləşdirilməsi uğrunda mübarizə. Baş məclis (Baş ştatlar). Silki monarxiya. Yüzillik müharibə. Jaklar üsyanı. Janna d'Ark. XI Lüdovik. Fransanın birləşdirilməsinin başa çatması.

***İngiltərə:*** Fateh Vilhelm. Mərkəzləşdirilmiş dövlətin yaranması. Parlament. Uot Tayler üsyanı. Al qızılgül və Ağ qızılgül müharibələri.

***İspaniya:*** Pireney yarımadası ərəblərin hakimiyyəti dövründə. Rekonkista.

### *SON ORTA ƏSRLƏR*

XV-XVI əsrlərdə texnikanın inkişafı. Amerika xalqları orta əsrlərdə: mayyalar, asteklər və inklər. Böyük coğrafi kəşflər. Avropalıların Asiya, Afrika və Amerikada müstəmləkə işğalları.

***İngiltərə:*** Kapitalist sənayesinin inkişafı. Manufaktura. "Çəpərləmələr". Yeni zadəganlar. Dəniz ticarəti və müstəmləkələr uğrunda mübarizə. XVI əsrdə ingilis burjuaziyasının sərvət yığma yolları. "Məğlubedilməz armada"nın məhv edilməsi.

***Fransa:*** Sənaye və ticarətin inkişafı. XVII əsrdə mərkəzi hakimiyyətin güclənməsi. Rişelye.

***Almaniya:*** Reformasiya və kəndli müharibəsi.

***Avropada reformasiya hərəkatı.*** Katolik kilsəsinin reformasiyaya qarşı mübarizəsi.

***Niderland:*** Kapitalist münasibətlərinin inkişafı. Niderland burjua inqilabı. Hollandiya respublikasının yaranması. Burjua inqilabının nəticələri.

***Şərqi Avropa xalqları:*** Mərkəzləşdirilmiş Rusiya dövlətinin yaranması. IV İvan və onun daxili və xarici siyasəti. Türk torpaqlarının – Volqaboyunun və Qərbi Sibirin Rusiya tərəfindən işğalı. Baltik dənizinə çıxmaq siyasəti. Livoniya müharibəsi. Reç Pospolita.

***Osmanlı imperatorluğu:*** Yeni fəthlər. Sultan Süleyman Qanuni.

***Böyük Moğol imperatorluğu:*** Dövlətin yaranması. Daxili və xarici siyasət. Dövlətin zəifləməsi.

***Çin:*** Qırmızısarıqlılar üsyanı**.** Min sülaləsi. Mancur ağalığının başlanması.

## YENİ DÖVR

Kapitalizm quruluşu cəmiyyətin inkişafında yeni mərhələdir.

***İngiltərə:*** XVII əsr burjua inqilabı. Dövlət quruluşu. Aqrar çevrilişin başa çatması. XVIII əsrdə müstəmləkə müharibələri. Sənaye çevrilişinin başlanması. Buxar maşını. Dünyada ilk dəmir yolu. İqtisadi böhran. Tred-yunionlar. 1832-ci və 1867-ci illərin parlament islahatları. İngiltərənin ticarət-sənaye birinciliyi. Ən iri

müstəmləkəçi dövlət. Sosial-iqtisadi inkişaf. İlk Britaniya dominionu. İkipartiyalı sistem. XIX əsrin sonu-XX əsrin əvvəllərində xarici siyasət. Antantanın yaranması.

***Fransa:*** Maarifçilik. 1789-1794-cü illər burjua inqilabı. Direktoriya. Napoleon Bonapart. Konsulluq. Birinci imperiya. Vyana konqresi. "Müqəddəs ittifaq"ın yaradılması. İkinci imperiya. Fransa-Prussiya müharibəsi. XX əsrin əvvəllərində Fransanın sosial-iqtisadi inkişafı. Daxili və xarici siyasət.

***Rusiya:*** XVII əsrin ikinci yarısında daxili siyasət. "Məclis Qanunnaməsi". Xarici siyasət. I Pyotr. Şimal müharibəsi. Rusiya imperiyasının yaranması. XVIII əsrin II yarısında Rusiyanın daxili və xarici siyasəti. Rusiya-Osmanlı müharibələri. Polşanın (Reç Pospolitanın) bölüşdürülməsi. Şimali Qafqaz xalqlarının Rusiya təcavüzünə qarşı azadlıq müharibəsi. Şeyx Mənsur. Şeyx Şamil. Krım müharibəsi. 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsi. Təhkimçilik hüququnun ləğvi. Burjua islahatları. Mərkəzi Asiyanın işğalı. 1905-1907-ci illər inqilabı. Dövlət dumaları. Stolıpinin islahatı. Fevral inqilabı. Oktyabr çevrilişi. Brest-Litovsk müqaviləsi.

***Amerika Birləşmiş Ştatları:*** Amerikada ingilis məskənləri. "Boston çay qonaqlığı". İstiqlaliyyət müharibəsi. C.Vaşinqton. "İstiqlaliyyət bəyannaməsi". ABŞ-ın yaranması. Konstitusiyanın qəbulu. Dövlət quruluşu. ABŞ-ın iqtisadi inkişafı. Xarici siyasət. "Monro doktrinası". Abolisionistlər. A.Linkoln. Vətəndaş müharibəsi. Homstedlər haqqında qanun. Köləliyin ləğvi. XIX əsrin sonu – XX əsrin əvvəllərində ABŞ-ın iqtisadi inkişafı və xarici siyasəti. V.Vilsonun "yeni demokratiya siyasəti".

***Osmanlı imperiyası:*** Osmanlı imperatorluğunun Avropa dövlətlərinə nisbətən geri qalması və bunun səbəbləri. Avropa dövlətlərinin Osmanlı imperiyasını parçalamaq planları. Osmanlı dövlətinə qarşı 1684-cü ildə "Müqəddəs birliy"in yaranması. "Şərq məsələsi". Sultan III Səlimin islahatları. Rusiya ilə Osmanlı dövləti arasında yeni müharibələr. Buxarest və Ədirnə müqavilələri. Osmanlı imperiyasının Avropa dövlətlərindən asılılığının daha da artması. Tənzimat. Konstitusiya uğrunda hərəkat. "Midhət konstitusiyası". "Gənc türklər" hərəkatı. Balkan müharibələri və onun nəticələri. Osmanlı imperatorluğu Birinci dünya müharibəsində. Çanaqqala döyüşləri. Mudros barışığı.

***Almaniya:*** Feodal dağınıqlığı. Almaniya ittifaqının yaradılması. Almaniyanın birləşdirilməsi. O.Bismark. Almaniya imperiyasının yaradılması. XIX əsrin sonu - XX əsrin əvvəllərində sosial-iqtisadi vəziyyət. Xarici siyasət. "Üçlər ittifaqı"nın yaranması. "Şliffen planı".

***Hindistan:*** Böyük Moğol imperiyasının dağılması. Hindistanın Britaniya tərəfindən işğalı. Sipahilər üsyanı. Ümumhindistan Milli Konqresinin yaradılması.

***Çin:*** "Tiryək müharibələri". Taypinlər hərəkatı. "Açıq qapı" doktrinası. 1911-1913-cü illər Çin inqilabı. Çinin respublika elan olunması. Sun Yatsen.

***Yaponiya:*** Syoqun rejimi. "Qapalı ölkə" siyasəti. 1868-ci il inqilabı. Burjua islahatları. 1889-cu il Konstitusiyası. 1904–1905-ci illər Rusiya-Yaponiya müharibəsi və onun nəticələri.

***Birinci Dünya müharibəsi (1914-1918-ci illər):*** Səbəbləri, xarakteri və başlanması. 1914-cü ildə hərbi əməliyyatlar. Marna sahilində vuruşma. 1915-ci ildə müharibənin gedişi. Dördlər ittifaqı. Qafqaz cəbhəsi. Qərb dövlətləri və Rusiyanın planlarında erməni məsələsi. Erməni-daşnak quldurlarının "Böyük Ermənistan" yaratmaq planları və türk-müsəlman əhalisinə qarşı soyqırımları. Verden "qəssabxanası". 1916-cı ildə hərbi əməliyyatlar. 1917-ci ildə hərbi əməliyyatlar. ABŞ-ın müharibəyə girməsi. 1918-ci ildə hərbi əməliyyatlar. Almaniyanın müttəfiqlərinin təslim olması. Almaniyanın məğlub olması. Kompyen barışığı. Müharibənin nəticələri.

## MÜASİR DÖVR

***Dünya ölkələri iki dünya müharibəsi arasındakı dövrdə***

**Versal-Vaşinqton sistemi:** Paris konfransı. Versal sistemi. Millətlər Cəmiyyəti. Mandat sistemi. Vaşinqton konfransı. Versal-Vaşinqton sisteminin ziddiyyətləri.

**XX əsrin 20-ci illərində dövlətlərarası münasibətlər:** Genuya konfransı. Versal sistemini yumşaltmaq cəhdləri. Daues planı. Lokarno (İsveçrə) konfransı. Reyn təminat Paktı. Brian-Kelloq paktı.

**Qərbi Avropa dövlətləri və ABŞ:** Böyük Britaniya. İlk leyborist hökuməti. Fransa. Milli blok. Almaniya. Nasist partiyasının yaranması. Veymar Respublikası. ABŞ 20-ci illərdə.

**Dünya iqtisadi böhranı və ondan çıxmaq yolları:** Böyük böhranın başlanması və nəticələri. F.Ruzveltin "Yeni xətt" siyasəti. "İsveç modeli". Xalq Cəbhəsi.

**Liberal demokratizmə alternativ totalitar rejimlər:** Totalitarizm. Almaniyada faşist (nasist) diktaturasının qurulması. İtaliyada faşizm. İspaniyada Xalq Cəbhəsi və faşist qiyamı.

**SSRİ-də totalitar sovet cəmiyyətinin qurulması:** Rusiyada vətəndaş müharibəsi. "Hərbi kommunizm". Yeni iqtisadi siyasət. SSRİ-nin yaradılması. Sosialistcəsinə yenidənqurmalar.

**Türkiyə:** Birinci dünya müharibəsinin Osmanlı imperiyası üçün nəticələri. Milli-azadlıq hərəkatının başlanması. Türk xalqının qələbəsi, Respublika elan edilməsi. Mustafa Kamal Atatürk. Kamalçıların islahatları. Etatizm. Türkiyənin xarici siyasəti.

**Hindistan:** 20-30-cu illərdə milli-azadlıq hərəkatı.

**İran:** Pəhləvilər sülaləsinin hakimiyyətə gəlməsi. Paniranizm siyasəti.

***İkinci dünya müharibəsi:***

30-cu illərdə beynəlxalq münasibətlər: Asiya və Avropada müharibə ocaqlarının yaranması. Təcridçilik siyasəti. "Münhen sövdələşməsi". "Ribbentrop-Molotov" paktı.

Müharibənin səbəbləri və xarakteri. İkinci dünya müharibəsinin başlanması. SSRİ-nin işğalları. Avropada işğalların davam etdirilməsi. Afrikada, Balkanlarda

və Şərqdə hərbi əməliyyatlar. Antifaşist müqavimət hərəkatı. Almaniyanın SSRİ-nin üzərinə hücumu. Antihitler koalisiyasının yaradılması. Müharibənin gedişində əsaslı dönüş. Faşist blokunun dağılmağa başlanması. Tehran konfransı. Türk və Qafqaz xalqlarının deportasiyası. Sovet-alman cəbhəsində həlledici əməliyyatlar. İkinci cəbhənin açılması. Krım konfransı. BMT-nin yaradılmasına hazırlıq. Almaniyanın təslim olması. Potsdam konfransı. Yaponiyanın təslim olması. İkinci dünya müharibəsinin başa çatması.

***Dünya ölkələri İkinci dünya müharibəsindən sonrakı dövrdə***

**ABŞ:** Müharibədən sonrakı ilk dövrdə daxili və xarici siyasət. 50-60-cı illərdə ölkədə vəziyyət. Uotorgeyt böhranı. ABŞ 70-80-ci illərdə. “Reyqanomika” siyasəti. ABŞ XXI əsrin əvvəllərində.

**SSRİ:** Müharibədən sonrakı illərdə iqtisadi-siyasi tədbirlər. Siyasi vəziyyətin dəyişməsi. Rejimin böhranı. “Yenidənqurma”. Milli oyanış. SSRİ-nin dağılması. Müstəqil dövlətlərin yaranması. MDB-nin yaradılması. Müasir Rusiya.

**Böyük Britaniya:** Daxili və xarici siyasət. Müstəmləkə imperiyasının dağılması. “Tetçer erası”. Müasir dövr.

**Fransa:** Müvəqqəti rejim. Dördüncü Respublika. Şarl de Qoll. Beşinci Respublika: daxili və xarici siyasəti. Müasir dövr.

**Almaniya:** Ölkənin bölünməsi. AFR-in və ADR-in yaranması. “Alman möcüzəsi”. Xarici siyasət. Ölkənin birləşdirilməsi. Müasir dövr.

**İtaliya:** Respublika idarə üsulunun qurulması. Qalib dövlətlərlə sülh müqavilələrinin bağlanması. Daxili və xarici siyasət. Müasir dövr.

**Mərkəzi və Cənub-Şərqi Avropa ölkələri:** Sovet modelli rejimlərin bərqərar olması. Macarıstanda üsyan. “Praqa baharı”. Polşada “Həmrəylik” hərəkatı. “Məxməri inqilablar”. Yuqoslaviyanın parçalanması.

**Türkiyə:** Müharibədən sonrakı ilk illərdə sosial-iqtisadi islahatlar. 50-60-cı illərdə sosial-iqtisadi və siyasi vəziyyət. “Kipr böhranı”. “Türkiyə möcüzəsi”. Müasir dövr.

**Yaponiya:** 1947-ci il konstitusiyası. İşğal rejiminin başa çatması. Sürətli iqtisadi inkişaf və onun səbəbləri.

**Çin:** Vətəndaş müharibəsi. ÇXR-in yaranması. “Mədəni inqilab”. 70-80-ci illərdə iqtisadi islahatlar. Sosializm quruculuğunun “Çin modeli”. Qərb dövlətləri ilə Çinin yaxınlaşması. Honkonqun Çinə qaytarılması.

**Hindistan:** Respublikanın yaranması. İqtisadi və siyasi inkişaf. “Nehru xətti”. Xarici siyasət.

**Pakistan:** Respublikanın yaranması. Müasir dövr.

**Əfqanıstan:** 1978-ci il dövlət çevrilişi. SSRİ-nin Əfqanıstana hərbi müdaxiləsi və onun nəticələri. Müasir Əfqanıstanda ictimai-siyasi vəziyyət.

**Ərəb ölkələri:** İsrail-Fələstin münaqişəsi. İraq. Küveytin işğalı. “Körfəz müharibəsi”. Səddam Hüseyn rejiminin süqutu. Kərkük məsələsi.

**Beynəlxalq münasibətlər:** Dünyada yeni qütbləşmə. Soyuq müharibə. Qütbləşmədə yeni mərhələ. “Son tutaşma”. BMT-nin təşkili və onun rolunun artması. SSRİ-nin və dünya sosializm sisteminin dağılmasının beynəlxalq münasibətlərə təsiri. Dünya birliyi müasir mərhələdə. Qlobal problemlər.

# AZƏRBAYCAN TARİXİ

### *AZƏRBAYCAN ƏRAZİSİNDƏ İBTİDAİ İCMA CƏMİYYƏTİ VƏ QƏDİM DÖVLƏTLƏR*

Ən qədim insan məskənləri: Azıx mağarası. Azıx adamı. Tağlar, Damcılı, Qazma (Naxçıvan) mağaraları və s. Daş dövrü. Mis, tunc, dəmirdən istifadə və bunun nəticələri. İbtidai icma quruluşunun dağılması.

*Tayfa birlikləri və ilk dövlət qurumları.*

***Manna dövləti:*** Ərazisi. Əhalisi və təsərrüfatı. Dövlətin yaranması və inkişafı. Dövlətin tənəzzülü və süqutu. Mədəniyyət.

**Azərbaycanda İskit (Skif) dövləti:** Kimmer, iskit və sak tayfalarının Azərbaycan ərazisinə axını. Padşahlığın yaranması və tənəzzülü. Mədəniyyət.

***Azərbaycan Midiya və Əhəməni imperiyaları dövründə.***

***Atropatena dövləti:*** Əhalisi. Təsərrüfatı. Dövlətin yaranması və inkişafı. Azərbaycanda vahid xalqın yaranması prosesinin başlanması. Qonşu dövlətlərlə münasibət. Yadellilərə qarşı mübarizə. Mədəniyyət.

***Albaniya dövləti:*** Ərazisi. Əhalisi. Dövlətin yaranması və inkişafı. Azərbaycanda vahid xalqın yaranması prosesinin başlanması. İctimai və dövlət quruluşu. Təsərrüfatı. Yadellilərə qarşı mübarizə. Mədəniyyət.

### *AZƏRBAYCAN ORTA ƏSRLƏRDƏ*

***Azərbaycan III-VII əsrlərdə:*** Feodal münasibətlərinin meydana gəlməsi və inkişafı. Azərbaycanda feodal münasibətlərinin xüsusiyyətləri. Atropatena. Albaniya. Sasanilərin köçürmə siyasəti. Məzdəkilər hərəkatı. Girdiman dövləti. Cavanşir. Daxili və xarici siyasət. Mədəniyyət. Dini görüşlər.

***Azərbaycan Xilafətin tərkibində:*** Ərəblərin Azərbaycanı işğal etməsi. İslam dininin qəbul edilməsi. İnzibati idarə sistemi. Torpaq mülkiyyəti formaları. Ərəb xilafətinin vergi və köçürmə siyasəti. Xilafət zülmünə qarşı üsyanlar. Xürrəmilər hərəkatı. Babək. Təsərrüfat həyatı. Mədəniyyət. Azərbaycan xalqının təşəkkülü prosesinin sürətlənməsi. Xalqın təşəkkülü prosesində türk tayfalarının və islam dininin mütərəqqi rolu.

***Xilafətin zəifləməsi və Azərbaycanda siyasi dirçəliş. Azərbaycan dövlətləri (IX əsrin ikinci yarısı – XI əsrin ortaları):*** Şirvanşahlar, Sacilər, Salarilər. Sacilər və Salarilərin Azərbaycan torpaqlarını vahid dövlət tərkibində birləşdirmələri və bunun əhəmiyyəti. Şəddadilər və Rəvvadilər. Siyasi dirçəlişin xalqın yaranışı prosesinə müsbət təsiri.

Rusların (slavyanların) Azərbaycana qarətçi yürüşləri. Bərdə faciəsi.

İqtisadi dirçəliş. Azərbaycan xalqının yaranması prosesinin başa çatması. “Kitabi-Dədə Qorqud” dastan.

***Səlcuqlar və Azərbaycan. Azərbaycan dövlətləri (XI əsrin ortaları – XIII əsrin əvvəlləri):*** Azərbaycan Səlcuq imperiyasının tərkibində. Azərbaycanda türk-islam amilinin daha da möhkəmlənməsi. Eldənizlər (Atabəylər) dövləti. Şirvanşahlar dövləti. Azərbaycan-Gürcüstan münasibətləri. XI-XIII əsrin əvvəllərində iqtisadiyyat: kənd təsərrüfatında dirçəliş, torpaq mülkiyyəti formaları, sənətkarlıq və ticarətin inkişafı, şəhərlərin tərəqqisi. Gəncə zəlzələsi və onun nəticələri.

***Azərbaycan intibah mədəniyyəti:*** Elm və mədəniyyət. Vahid dilin yaranması. Azərbaycan türk dili. Məktəb və mədrəsələr. Bəhmənyar. Xətib Təbrizi. Fazil Fəriddin Şirvani. Memarlıq. Əcəmi Əbubəkr oğlu Naxçıvani, Məsud Davud oğlu.

***Azərbaycan Hülakülər (Elxanilər) dövlətinin tərkibində (XIII əsr – XIV əsrin birinci yarısı):*** Monqolların Azərbaycana yürüşləri. Xarəzmşah Cəlaləddin. Bəndər üsyanı. Azərbaycanda monqol hakimiyyəti. Qazan xanın islahatları. Cəlairilər dövləti və Azərbaycan. XIII əsrin ikinci yarısı – XIV əsrdə elm və mədəniyyət. Nəsirəddin Tusi. Fəzlullah Rəşidəddin. Orta əsr Azərbaycan universiteti: Təbrizdə ali mədrəsə (Rəşidiyyə).

***Azərbaycan XIV əsrin ikinci yarısı – XV əsrdə***

Şirvanşahlar dövləti. I İbrahim. Şəki hakimliyi. Toxtamışın və Teymurun Azərbaycana yürüşləri. Azərbaycan Qaraqoyunlu dövləti. Azərbaycan Ağqoyunlu dövləti. Azərbaycanın beynəlxalq əlaqələrinin genişlənməsi. Uzun Həsən. Sara xatın. Səfəvilərin Ərdəbil hakimliyi. İqtisadiyyat: təsərrüfat və şəhərlər. Soyurqal. Malcəhət vergisi. XIV əsrin axırları – XV əsrin əvvəllərində mədəniyyət. Memarlıq.

***Səfəvi dövləti:*** Mərkəzləşmiş Azərbaycan Səfəvi dövlətinin yaranması. Azərbaycan torpaqlarının birləşdirilməsi siyasəti. Azərbaycan torpaqlarının vahid dövlət tərkibində birləşdirilməsinin başa çatması. Səfəvi-Osmanlı müharibələri. 1555-ci il sülhü. Dövlət quruluşu. Tiyul. Səfəvi dövlətinin XVI əsrin ikinci yarısında daxili və beynəlxalq vəziyyəti. Səfəvi-Osmanlı müharibələri. 1590-cı il sülhü. Şah I Abbasın mərkəzi hakimiyyəti gücləndirmək tədbirləri. XVII əsrin birinci yarısında Səfəvi-Osmanlı müharibələri: 1639-cu il sülhü. Koroğlu. XVI əsr – XVII əsrin birinci yarısında Azərbaycanın iqtisadiyyatı. Şah I Təhmasibin vergi siyasəti. Elm və mədəniyyət.

***Azərbaycan XVII əsrin ikinci yarısında:*** Siyasi vəziyyət, təsərrüfat həyatı və mədəniyyət.

***AZƏRBAYCAN XVIII ƏSRDƏ***

***Azərbaycanın beynəlxalq münaqişə meydanına çevrilməsi:*** XVIII əsrin əvvəllərində Azərbaycanın daxili və beynəlxalq vəziyyəti. I Pyotrun Xəzərsahili vilayətlərə işğalçılıq yürüşü. Peterburq müqaviləsi. Osmanlı imperiyasının Cənubi Qafqaza qoşun çıxarması. İstanbul müqaviləsi (1724). Azərbaycanda rus və Osmanlı idarəçiliyi. Kirmanşah, Rəşt, Bağdad və Gəncə müqavilələri. Osmanlı və rus qoşunlarının Azərbaycandan çıxarılması. Böyük Azərbaycan sərkərdəsi Nadir şah Əfşarın hakimiyyətə gəlməsi. Azərbaycanın şimalında üsyanlar. Hacı Çələbi.

***Azərbaycanda müstəqil dövlətlərin (xanlıqların) yaranması:*** Xanlıqların meydana gəlməsi. Camaat, sultanlıqlar və məlikliklər. Onların qarşılıqlı münasibətləri. Xanlıqlar arasında ziddiyyətlər və Azərbaycanın düşmənlərinin bundan istifadə etməsi. Azərbaycan xanlıqlarının xarici əlaqələri. İqtisadiyyat: kənd təsərrüfatı, sənətkarlıq, ticarət. Ağa Məhəmməd şah Qacar. Rusiya işğalçılarına qarşı mübarizə. Mədəniyyət.

***Azərbaycanın bölüşdürülməsi***

Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının başlanması. İşğalçılara qarşı mübarizə: Car-Balakən döyüşləri. Gəncədə Rusiya işğalçılarına güclü müqavimət. Xalq qəhrəmanı Cavad xan. 1804-1813-cü illər Rusiya-İran və 1806-1812-ci illər Rusiya-Osmanlı müharibələri. Kürəkçay müqaviləsi. Buxarest sülhü. Gülüstan müqaviləsi. Azərbaycanın Rusiya ilə İran arasında birinci dəfə bölüşdürülməsi. 1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Osmanlı müharibələri. Türkmənçay müqaviləsi: Azərbaycanın Rusiya ilə İran arasında ikinci dəfə bölüşdürülməsi. Ədirnə müqaviləsi. Çarizmin köçürmə siyasəti. Azərbaycan ərazisində “erməni vilayəti”nin yaradılması.

***Azərbaycan XIX əsrin birinci yarısında***

Şimali Azərbaycanda çarizmin müstəmləkəçilik siyasəti. İqtisadi vəziyyət. İnzibati idarəçilik. Mərkəzi Şuşa şəhəri olan “Müsəlman əyalətləri rəisliyi”nin yaradılması. Kənd təsərrüfatı. Şəhərlər. Sənaye və ticarət. Köçürmə siyasətinin davam etdirilməsi. Ermənilərin Qərbi Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülməsi. 30-cu illərdə müstəmləkəçilik əleyhinə mübarizə. 40-cı illərin islahatları. Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin yenidən pozulması. Azərbaycanın Şimal-Qərb və Qərb torpaqlarının (Qazax, Şəmşəddil, Gəncə, Car-Balakən, İrəvan və Naxçıvan) Gürcüstan-İmeretiya quberniyasına daxil edilməsi. Qafqaz canişinliyinin yaradılması. İnzibati idarəçilikdə dəyişikliklər: Azərbaycan torpaqlarında Dərbənd, Şamaxı və İrəvan quberniyalarının yaradılması. Bəy və ağaların hüquqları barəsində 1846-cı il reskripti. 1847-ci il "Kəndli Əsasnamələri".

Maarif. Elm və incəsənət. M.Kazımbəy, M.C.Topçubaşov, A.Bakıxanov. “Gülüstani-İrəm”.

Cənubi Azərbaycan. Sosial-siyasi vəziyyət. Babilər hərəkatı.

***Azərbaycan XIX əsrin ikinci yarısında***

Şimali Azərbaycanda kapitalist münasibətlərinin yaranması və inkişafı.

Çarizmin qanlı müstəmləkə rejiminə qarşı xalq hərəkatı. Zaqatala üsyanı. 1870-ci il 14 may kəndli islahatı. Məhkəmə, şəhər və inzibati islahatlar. Dərbənd quberniyasının ləğvi, Yelizavetpol (Gəncə) quberniyasının yaradılması. Şimali Azərbaycan kəndli islahatından sonrakı dövrdə. Qaçaq hərəkatı. Qaçaq Nəbi. Qaçaq Kərəm. XIX əsrin ikinci yarısında iqtisadi inkişaf. Neft sənayesi. Başqa sənaye sahələri. H.Z.Tağıyev, Ş.Əsədullayev, M.Nağıyev. Azərbaycan mədəniyyəti. Elm və maarif. Milli mətbuat. “Əkinçi” qəzeti. Mədəni-maarif ocaqları. Teatr. İctimai fikir. Ziyalılar: Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev və b.

Millətin təşəkkülü.

Cənubi Azərbaycan: təsərrüfat həyatı, kəsbkarlıq. “Tənbəki” üsyanı.

***Azərbaycan XX əsrin əvvəllərində***

İqtisadiyyat. Kəndlilərin vəziyyəti. Kəsbkarlıq. Bakıda ilk ümumi tətil. 1904-cü il dekabr tətili. "Mazut konstitusiyası".

XX əsrin əvvəllərində Azərbaycanda milli- demokratik hərəkat. İctimai təşkilatların və milli partiyaların yaradılması. “Difai” və “Müsavat” partiyaları. Azərbaycan 1905–1907-ci illər inqilabı dövründə. Çarizmin Cənubi Qafqazda milli ədavət siyasəti: 1905-ci ildə ermənilərin azərbaycanlılara qarşı soyqırımı. Ümumrusiya Müsəlmanları qurultayları. Müsəlman İttifaqı. Azərbaycanlı deputatların Rusiya Dövlət Dumalarında fəaliyyəti. Bakı Fəhlə Deputatları Soveti.

1905-1911-ci illərdə Cənubi Azərbaycanda inqilabi hərəkat. Səttərxan.

1912-1913-cü illərin aqrar qanunları.

XX əsrin əvvəllərində mədəniyyət: Elm. Maarif. Mətbuat. “Molla Nəsrəddin” jurnalı. İncəsənət.

***Azərbaycan Birinci dünya müharibəsi illərində (1914-1918)***

Azərbaycan müharibədə iştirak edən dövlətlərin planlarında. Azərbaycan Fevral inqilabından sonrakı dövrdə. Xüsusi Cənubi Qafqaz (Zaqafqaziya) Komitəsi. Milli-azadlıq hərəkatı və onun xüsusiyyətləri. Bakıda Sovet hakimiyyətinin elan olunması. Bakı Sovetində rəhbərliyin S.Şaumyan başda olmaqla daşnak-bolşevik güruhunun əlinə keçməsi və onun Azərbaycan xalqını məhv etmək siyasəti. Azərbaycanlılara qarşı 1918-ci il Mart soyqırımı. Bakı Xalq Komissarları Sovetinin yaranması və daşnak-bolşevik güruhunun antiazərbaycan siyasəti. Cənubi Qafqaz (Zaqafqaziya) Komissarlığı və Seymi.

***Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920)***

“İstiqlal bəyannaməsi” və Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi. Dövlətçiliyin bərpası. İrəvanın ermənilərə verilməsi (29 may 1918-ci il) və Azərbaycan ərazisində erməni dövlətinin yaradılması. Bakıda Xalq Komissarları Sovetinin və "Sentrokaspi” diktaturasının süquta uğraması. Bakının azad edilməsi. Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasəti. Dövlət quruculuğu. Azərbaycan Parlamenti. Erməni təcavüzünə qarşı mübarizə. Şimali Azərbaycanın XI Qırmızı ordu tərəfindən işğal edilməsi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu.

Cənubi Azərbaycanda milli azadlıq hərəkatı. Ş.M.Xiyabani.

***Azərbaycan 20-30-cu illərdə***

***Şimali Azərbaycanda Sovet rejiminin bərqərar olması (20-30-cu illər)*****:** Azərbaycanda Sovet hakimiyyətinin qurulması. Azərbaycan SSR-nin yaradılması. Sovet rejiminə qarşı üsyanlar. Yeni iqtisadi siyasət. "Çanaq". Azərbaycan SSR-nin ZSFSR və SSRİ-yə qatılması. Sovet dövlət orqanlarının yaradılması. Yuxarı (Qərbi) Zəngəzurun Ermənistan SSR-yə ilhaq edilməsi. DQMV və Naxçıvan MSSR-in təşkili. 1929–1931-ci illərdə Ordubad və Zəngilan rayonlarının bir sıra kəndlərinin Ermənistan SSR-yə verilməsi. Naxçıvanın Sovet Azərbaycanının digər torpaqlarından ayrı salınması. Sosialistcəsinə yenidənqurmalar və onların nəticələri: Azərbaycan SSR-də sənayeləşdirmə və kollektivləşdirmənin həyata keçirilməsi. Totalitar sosializm cəmiyyətinin qurulması. Azərbaycan SSR-də kütləvi repressiyalar. Mədəni quruculuq: maarif, elm və incəsənət. Əlifba islahatları.

***Azərbaycan İkinci dünya müharibəsi illərində***

Sovet Azərbaycanı müharibə edən dövlətlərin planlarında. Bakı Sovet ordusunun yanacaq bazası və cəbbəxanası kimi. Bakı neftinin faşizm üzərində qələbədə rolu. Milli diviziyalar. Azərbaycanlıların partizan və antifaşist-müqavimət hərəkatlarında iştirakı. Mədəniyyət.

Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı. S.C.Pişəvəri.

***Azərbaycan İkinci dünya müharibəsindən sonrakı dövrdə***

Azərbaycan SSR 1945–1960-cı illərin ortalarında:

Dinc əməyə keçid. İlk dəniz neft mədənləri. Neft daşları. Yeni sənaye sahələri və mərkəzləri. Sənaye və kənd təsərrüfatı. Nəqliyyat: Bakı-Krasnovodsk gəmibərə yolu, Yevlax-Bərdə-Ağdam dəmir yolu. Azərbaycan əhalisinin Qərbi Azərbaycandan (Ermənistan SSR-dən) kütləvi surətdə sürgün olunması (deportasiyası). Mədəniyyət.

Azərbaycan SSR 1960-cı illərin ortalarında – 1980-ci illərdə:

Respublikada idarəçiliyin gücləndirilməsi və milli dirçəliş siyasəti.

Azərbaycanın sərhədyanı torpaqlarının Ermənistan SSR-yə verilməsi haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin 1969-cu ilin 7 mayında təsdiq etdiyi 1938-ci il qərarının həyata keçirilməsinin Heydər Əliyev tərəfindən dayandırılması.

Sosial-iqtisadi həyat. 70–80-ci illərin əvvəllərində Azərbaycanda sənaye və kənd təsərrüfatının inkişafı. Mühüm tikintilər (Bakı məişət kondisionerləri zavodu, Heydər Əliyev adına Respublika Sarayı, Gülüstan sarayı və s.). Nəqliyyat. Kadr hazırlığı. Elmi-texniki tərəqqi. Mədəniyyət.

Cənubi Azərbaycan İkinci dünya müharibəsindən sonrakı dövrdə.

***Azərbaycan SSR "yenidənqurma" dövründə***

Qarabağ düyünü. Azərbaycanlıların Qərbi Azərbaycandan (Ermənistan SSR-dən) sürgün olunmasının (deportasiyasının) başa çatdırılması. Müstəqillik uğrunda mübarizə. Xalq hərəkatı. Azərbaycan Xalq Cəbhəsi. Qanlı Yanvar.

***Şimali Azərbaycanda dövlət müstəqilliyinin bərpası. Müstəqilliyin möhkəmləndirilməsi uğrunda mübarizə***

Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi. Sərbəst iqtisadiyyat və müstəqil dövlət quruculuğuna keçid: onun çətinlikləri, uğurları. Qarabağ müharibəsi. Xocalı soyqırımı. 90-cı illərdə sosial-iqtisadi və siyasi vəziyyət: ictimai-siyasi hərəkatlar və partiyalar; daxili vəziyyət; milli dövlət quruculuğu; xarici siyasət; Azərbaycanın BMT-yə və digər beynəlxalq təşkilatlara daxil olması. Əsrin müqaviləsi. Prezident H.Əliyevin başçılığı ilə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması və möhkəmləndirilməsi uğrunda mübarizə. 1995-ci il Konstitusiyası. Milli Məclis. Azərbaycan Respublikasının dövlət rəmzləri. Milli bayramlar. Demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu. 1998-ci ilin prezident seçkiləri. Bələdiyyə seçkiləri. Xaricdə yaşayan azərbaycanlılarla əlaqələrin genişlənməsi. Dünya azərbaycanlılarının qurultayları. 2002-ci ilin referendumu. 2003-cü ilin prezident seçkiləri. İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi.

Neft strategiyası. Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri. Bakı-Tbilisi-Ərzurum qaz kəməri. Bakı-Qars dəmiryolu. Müasir mərhələdə dövlət quruculuğu, sosial-iqtisadi vəziyyət. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramı". Xarici siyasət. Dağlıq Qarabağ münaqişəsinin həlli uğrunda mübarizə. Azərbaycanın Milli Qəhrəmanları. Xəzərin hüquqi statusunun həll edilməsi uğrunda mübarizə. Böyük İpək Yolunun bərpası haqqında Bakı bəyannaməsi. Mədəniyyət. Türk dövlətləri və cəmiyyətlərinin XI Bakı qurultayı. Xarici ölkələrdəki azərbaycanlı və türk diasporlarının fəaliyyətinin əlaqələndirilməsi. 2008-ci ildə keçirilən prezident seçkiləri. İlham Əliyevin ikinci müddətə Azərbaycan Respublikasının Prezidenti seçilməsi. Moskva bəyannaməsi. 2009-cu ilin referendumu. Türkdilli ölkə başçılarının Azərbaycanın Naxçıvan şəhərində IX zirvə görüşü. 2010-cu ildə Bakıda Dövlət Bayrağı meydanının açılması. Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi. İlham Əliyevin üçüncü müddətə Azərbaycan Respublikasının Prezidenti seçilməsi.

## ƏDƏBİYYAT SİYAHISI


1. *Qədim dünya tarixi . 6-cı sinif üçün dərslik. V.Əliyevin ümumi redaktorluğu ilə. Bakı, 2007.*
2. *Orta əsrlər tarixi. 7-ci sinif üçün dərslik. Y.Mahmudlunun ümumi redaktorluğu ilə. Bakı, 2008.*
3. *Orta əsrlər tarixi. 8-ci sinif üçün dərslik. Y.Mahmudlunun ümumi redaktorluğu ilə. Bakı, 2007.*
4. *Yeni tarix. 9-cu sinif üçün dərslik. M.Qasımlının ümumi redaktorluğu ilə. Bakı, 2011.*
5. *Yeni tarix. 10-cu sinif üçün dərslik. T.Vəliyevin ümumi redaktorluğu ilə. Bakı, 2010.*
6. *Ən yeni tarix. 11-ci sinif üçün dərslik. İ.Məmmədov və S. Qəndilovun ümumi redaktorluğu ilə. Bakı, 2009 – 2012.*
7. *Azərbaycan tarixi. 6-cı sinif üçün dərslik. V.Əliyevin ümumi redaktorluğu ilə. Bakı, 2008.*
8. *Azərbaycan tarixi. 7-ci sinif üçün dərslik. Y.Mahmudlunun ümumi redaktorluğu ilə. Bakı, 2008.*
9. *Azərbaycan tarixi. 8-ci sinif üçün dərslik. Y.Mahmudlunun ümumi redaktorluğu ilə. Bakı, 2009.*
10. *Azərbaycan tarixi. 9-cu sinif üçün dərslik. T.Vəliyevin ümumi redaktorluğu ilə. Bakı, 2009.*
11. *Azərbaycan tarixi. 10-cu sinif üçün dərslik. T.Vəliyevin ümumi redaktorluğu ilə. Bakı, 2009.*
12. *Azərbaycan tarixi. 11-ci sinif üçün dərslik. İ.Məmmədov və S. Qəndilovun ümumi redaktorluğu ilə. Bakı, 2009.*
13. *Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 2009-2013.*
14. *Azərbaycan Respublikasının Konstitusiyası. IX sinif şagirdləri üçün test tapşırığı toplusu. "Abituriyent" jurnalının xüsusi buraxılışları. Bakı, 2012.*
15. *Tarix. Abituriyentlər və yuxarı sinif şagirdləri üçün vəsait. "Abituriyent" jurnalının xüsusi buraxılışı. Bakı. 2013.*
16. *Azərbaycan tarixi. VI-XI siniflər üçün test tapşırığı topluları. "Abituriyent" jurnalının xüsusi buraxılışları. Bakı, 2013.*
17. *Ümumi tarix. VI-XI siniflər üçün test tapşırığı topluları. "Abituriyent" jurnalının xüsusi buraxılışları. Bakı, 2013.*


*Tarix fənnindən qəbul imtahanı proqramı Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi ümumtəhsil məktəblərinin fənn proqramları və yeni dərsliklər əsasında tərtib edilmiş və Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının tarix fənni üzrə elmi-metodiki seminarında geniş müzakirələrdən sonra qəbul olunmuşdur.*
*Seminarın rəhbəri BDU-nun professoru,*
*t.e.d.* ***İ.X.Zeynalov.***

*Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının rəhbərliyi proqramın tərtibində və təkmilləşdirilməsində zəhməti olan seminar iştirakçılarına dərin minnətdarlığını bildirir.*